Təhsil millətin gələcəyidir!
Heydər Əliyev

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

2 sentyabr 2024-cü il №31 (9089) www.muallim.edu.az muallim@media.edu.az

# "Müəllimlər əzbərçiliklə şagirdlərdə müstəqil düşüncəni öldürürlər"

## Xalq şairi Bəxtiyar Vahabzadənin müsahibəsi



*– Bəxtiyar müəllim, təhsilimizin indiki vəziyyətini necə qiymətləndirərdiniz?*

– Narazı olmaq asandır, amma "necə olsun" sualına cavab vermək çətindir. Təhsilimizin indiki vəziyyəti qənaətbəxş deyil. Bunun bir çox səbəbləri var, mən onları sadalamaq istəmirəm, çünki hamıya məlumdur. Amma hər şeyimiz pisdir və təhsilimiz də pis vəziyyətdədir, - demək də düz deyil. Mən bir çox xarici ölkələrdə olmuş və imkan tapdıqca onların təhsil sistemi ilə maraqlanmışam. Azərbaycanda orta təhsil alanlar ilə xarici ölkələrdə təhsil alanları müqayisə etsək, bir çox cəhətdən bizim üstün olduğumuz görünər.

Bilirsiniz, bizim təhsil sistemimizdə naqis cəhətlərdən olan əzbərçilik metodu var. Bu da müəllimlərin zərərli iş üsullarından biri sayılır. Həmin müəllimlər bilməlidirlər ki, əzbərçiliklə şagirdlərdə müstəqil düşüncəni öldürürlər. Şagird oxuduğu kitab haqqında müstəqil fikir yürüdə bilmir. Bu ondan irəli gəlir ki, bir çox müəllimlərimizin özləri müstəqil düşünməyi bacarmırlar. Bu, faciədir.

*– Müəllimlərin son on ildəki intellektual səviyyəsi, şəxsi keyfiyyətləri sizi qane edirmi?*

– Təəssüf ki, müəllimlərimizin əksəriyyətinin intellektual səviyyəsi çox aşağıdır. Onlar demək olar ki, mütaliə ilə məşğul olmur, öz üzərlərində çalışmırlar. Mən bunu dəfələrlə çıxışlarımda, yazılarımda demişəm...

*– Qızların oğlanlardan ayrı təhsil almalarına necə baxırsınız?*

– Buna təbii baxıram. Bizim vaxtilə qız, oğlan məktəblərimiz olub. O dövrün maarifpərvər ziyalıları, xanımları məhz həmin məktəblərin yetirmələri olmuşdur. Məncə, qızlar oğlanlardan ayrı təhsil alsalar daha məqsədəuyğun olar...

*– Övladlarımızın tərbiyəsində əsas nəyə fikir verirsiniz? Onlara hansı dəyərlərin aşılanmasını tövsiyə edərdiniz.*

– Birinci növbədə, onlarda vətən sevgisi oyanmalıdır. Gənclərimizə milli şüur aşılanmalıdır. Onlar adət-ənənələrimizə sədaqət, böyük-kiçik yeri bilmək ruhunda tərbiyə edilməlidirlər.

...Dilimiz həqiqi mənada dövlət dili elan olunandan sonra bir sıra vəzifəli adamlar öz uşaqlarını, nəvələrini rus məktəblərindən çıxardıb Azərbaycan məktəblərinə verdilər. Onların məqsədi başqa şey idi. Gələcəkdə övladlarına yüksək vəzifələr qapdırmaq üçün belə edirdilər. Burada heç bir milli oyanışdan, şüurdan söhbət belə gedə bilməz. Hazırda isə vəziyyəti başqa cür təsəvvür edən, həmin "ayıqlar" təzədən öz uşaqlarını, nəvələrini Azərbaycan məktəblərindən çıxardıb rus məktəblərinə verirlər! Bu, buqələmunluqdur, simasızlıqdır!

*– Bəxtiyar müəllimin demək istədiyi son söz.*

– Arzum budur ki, xalqımızın başına gətirilən dəhşətli faciələrə son qoyulsun. Gənclərimiz daha ağılla, səbrlə hərəkət etsinlər. Bizim buraxdığımız səhvləri gələcəkdə onlar təkrarlamasınlar. Tarixin bugünkü ibrət dərslərindən nəticə çıxarsınlar.

**Müsahibəni apardı: Samirə KƏRİMOVA**

*"Azərbaycan müəllimi", 19 mart 1994-cü il*